# " 17 noyabr - "Bir xalqın iradəsi"

**Hər il Milli Dirçəliş günü kimi qeyd etdiyimiz 17 noyabr Azərbaycan tarixində azadlıq, birlik və milli oyanışın rəmzi kimi xüsusi yer tutur. Bu gün xalqımızın milli ruhunun yenidən alovlandığı, cəmiyyətin azadlıq ideyası ətrafında birləşdiyi bir mərhələni ifadə edir. 1988-ci il noyabrın 17-də Bakıda başlayan fasiləsiz kütləvi mitinqlər Azərbaycanın milli azadlıq hərəkatında dönüş, əsl dirçəliş nöqtəsinə çevrildi.**

Həmin dövr Azərbaycan xalqı üçün siyasi, sosial və mənəvi baxımdan çətin bir mərhələ idi. Təkcə öz kimliyini müdafiə etmək deyil, hər cür ədalətsizliyə qarşı səsini ucaltmaq ehtiyacı yaranmışdı. 17 noyabrda Azadlıq meydanında toplaşan yüz minlərlə insan milli hüquqlarının qorunması, ədalətin bərpası və azad gələcək uğrunda tarixi iradə nümayiş etdirdi. Bu hərəkat daha sonra Azərbaycanın istiqlal yolunda ən mühüm addımlarından biri oldu.

Milli Dirçəliş günü haqlı olaraq Azərbaycanın dövlət müstəqilliyinə aparan yolun başlanğıcı sayılır. Uzun illər boyu sovet senzurası altında sıxılan milli düşüncə məhz 17 noyabr günü yenidən dirçəldi. Xalq açıq şəkildə müstəqillik, suverenlik istəyini ifadə etdi.

Bu gün Milli Dirçəliş Günü kimi qeyd etdiyimiz tarix yalnız bir siyasi hadisənin xatırlanması deyil. Bu, millət olaraq necə dirildiyimizin, necə ayağa qalxdığımızın, qorxuya qalib gəlib özgürlüyə doğru addım atdığımızın simvoludur.

17 noyabr bizi yumruq kimi birləşdirən, eyni nəfəsə kökləyən milli iradənin günüdür. Bu gün göstərdi ki, xalq gücünü bir yerə topladıqda onu heç bir qüvvə susdura bilməz.

Milli Dirçəliş Günü həm də dünyaya bir mesajdır- bu torpaq, bu Vətən yalnız ayıq, öz köklərinə sadiq olan millətin çiynində yüksəlir. O gün meydanda yanan azadlıq alovu bu gün də içimizdə yaşayır, yolumuzu işıqlandırır və bizi gələcəyə aparır.

Hadisələr Azərbaycan cəmiyyətində milli özünüdərk prosesini sürətləndirdi və milli kimlik anlayışını kollektiv səviyyəyə yüksəltdi. Cəmiyyət öz siyasi iradəsini ifadə etmək bacarığını nümayiş etdirdi, bu isə milli dövlətçilik ideyasının formalaşması üçün mühüm şərt idi. 17 noyabr hadisələri Azərbaycan xalqının dövlətçilik tarixinə yeni mərhələ daxil etdi və müstəqil dövlət quruculuğunun ideoloji bazasının formalaşmasında mühüm rol oynadı.

1988-ci ildə-xalq hərəkatının alovlandığı bir vaxtda Azərbaycana rəhbərlik edən siyasi qüvvələr isə mövcud vəziyyəti düzgün qiymətləndirə bilmədilər. Həm də, xalqın maraqlarından daha çox imperiyanın maraqlarını düşünən bu adamların siyasi səbatsızlığından 20 Yanvar faciəsi baş verdi. Bir-birini əvəzləyən hakimiyyətlər xalqın dirçəlişini mütərəqqi səmtə yönəltmək iqtidarında deyildi. Həmin o ağır məqamlarda yenə də ulu öndər Heydər Əliyev xalqın istiqlal ruhunu ölməyə qoymadı. Hakimiyyətə gəlişi ilə xalqa sağlam ruh və özünüdərk gətirən ümummilli lider Heydər Əliyev sovet ideologiyasının sərt qadağalarına baxmayaraq, milli mənəvi dəyərlərə, Azərbaycan elminin və mədəniyyətinin dirçəlişinə xüsusi önəm verdi. Bütün sahələrdə inkişaf və oyanış müşahidə olunmağa başladı. Azərbaycan əsl intibah və dirçəliş dövrünə qədəm qoydu.

Artıq beş ildir ki, Milli Dirçəliş Günü Azərbaycanın ərazi bütövlüyü şəraitində qeyd olunur. Bu münasibətlə Azərbaycan Hərb Tarixi Muzeyində " Birliyimiz və iradəmiz hər zaman bayrağımızı yüksəltmiş, xalqımızı dirçəltmişdir!" adlı elmi seminar keçirildi.



Seminarda əvvəlcə müasir Azərbaycan Ordusunun yaradıcısı ulu öndər Heydər Əliyevin, birinci və ikinci Vətən müharibələrində müstəqilliyimiz, ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda şəhid olmuş həmvətənlərimizin ruhu bir dəqiqəlik sükutla anıldı, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Seminarı giriş nitqi ilə açan muzeyin rəisi e.o.polkovnik Elşad Pənahov Milli Dirçəliş günü ilə bağlı geniş məlumat verdi. Qeyd etdi ki, Milli dirçəliş hərəkatı Azərbaycanın müstəqilliyinin bərpa edilməsinə gedən yolda xalqımızın tarixinin əsas hadisələrindən biridir:

"Ermənilərin Topxanada törətdikləri vəhşiliklər, Ağdamda iki azərbaycanlını qətlə yetirmələri Bakıda milli hisləri daha da alovlandırdı. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 16 noyabr 1994-cü ildə Milli Dirçəliş günü münasibətilə Azərbaycan xalqına müraciətində demişdir: "Bir neçə il öncə torpaqlarımızın toxunulmazlığı uğrunda başlanan mübarizə son anda vüsətli xalq hərəkatına çevrildi. Xalqın milli şüurunun oyanması ilə müşayiət olunan bu hərəkat özünün siyasi məzmununa görə dünyada gedən qlobal proseslərin ümumi kontekstinə qovuşdu"".

Elmi seminarda AHTM-nin tədqiqatçı-baş elmi işçisi, t.ü.f.d. Vahid İsmayılov " Milli dirçəlişə aparan tarixi hadisələr" adlı məruzəsi ilə çıxış edərək bildirib ki, 1985-ci ilin martında M.Qorbaçovun hakimiyyətə gəlməsi ilə ölkədə böhrandan çıxmaq məqsədi ilə "yenidənqurma" xətti həyata keçirilməyə başladı:

"Bu xətt xarici ədəbiyyatda "Qorbaçov inqilabı" kimi mənalandırılır. "Yenidənqurma" əvvəl xalq təsərrüfatının inkişafını sürətləndirmək siyasətindən başladı. Sonra iqtisadi, siyasi və hüquqi islahatların həyata keçirilməsinə başlanıldı.

Yenidənqurma və aşkarlıq siyasəti obyektiv sürətdə demokratiya və azadfikirliliyin ilk rüşeymlərinin yaranmasına gətirib çıxardı. " Yenidənqurma" dövründə demokratiya, aşkarlıq və siyasi plüralizm şəraitinin yaradılması təqribən 70 il ərzində dünyanın 1/6-ni əhatə edən Sovetlər İttifaqında, o cümlədən milli münasibətlərdə yığılıb qalmış səhv və nöqsanları üzə çıxardı. Ölkədə mərkəzdənqaçma meyilləri gücləndi.

Tarix bizi ağır sınaqlara çəksə də, müstəqilliyə qovuşduğumuz az müddətdə milli demokratik dövlət quruculuğu, ictimai-siyasi və iqtisadi həyatın bir çox sahələrinin yenidən qurulması istiqamətində ciddi addımlar atıldı. Xarici siyasətimizin uğurları, müharibədə atəşkəsin əldə edilməsi, nüfuzlu neft şirkətləri konsorsiumu ilə "Əsrin müqaviləsi"nə imza atılması, ölkədə siyasi sabitliyin bərqərar edilməsi uğurlu dövlət quruculuğunun gələcək perspektivlərindən xəbər verir".

Seminarda AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun professoru Hacı Həsənov "Milli azadlıq hərəkatının növbəti yüksəlişi" adlı məruzə ilə çıxış edərək vurğulayıb ki, Ermənilərin Azərbaycanın əzəli torpaqlarına qarşı yürütdüyü ərazi iddiası 30 ilə yaxın işğalla nəticələndi:

"2020-ci ilin sentyabrın 27-dən başlayaraq, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuzun torpaqlarımızın işğaldan azad etmək məqsədi ilə başladığı zəfər yürüşü uğurla başa çatdı. Prezident İlham Əliyev dərin məzmunlu və çoxşaxəli siyasi kursu ilə müstəqilliyimizi daha da möhkəmləndirib. Ən əsası da odur ki, indi Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev bu münasibətlə çıxışlarının birində demişdir: "İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi... Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq"".

Hacı Həsənov bildirib ki, müdrik və uğurlu siyasətin nəticəsi olaraq Azərbaycan hazırda dünyada söz sahibi olan dövlətlərdəndir:

"Dövlətimiz eyni zamanda Cənubi Qafqazın lideri statusunu daşıyır. Tam müstəqil siyasət yürütməsi də respublikamızın beynəlxalq imicinə müsbət təsir edən əsas amillərdəndir. Vətən müharibəsindəki Qələbə isə Azərbaycanın beynəlxalq mövqelərinin daha da möhkəmlənməsində, nüfuzunun yüksəlməsində böyük rol oynadı.

17 noyabr bir daha göstərdi ki, bütün ciddi-cəhdlərə baxmayaraq, azad yaşamaq üçün xəlq olunmuş milləti müstəmləkə boyunduruğu altında saxlamaq qeyri-mümkündür. Zəngin tarixə malik xalqımız artıq neçə ildir ki, Milli Dirçəliş Gününü bayram kimi qeyd edir və bu günün qeyd olunması bütün Azərbaycan xalqının mənəvi haqqıdır. İndi müstəqilliyimizin siyasi və iqtisadi sütunları getdikcə möhkəmlənir. Müstəqilliyin taleyini müəyyənləşdirən əsas amillər qorunub-saxlanılır, inkişaf etdirilir".

17 noyabr- Milli Dirşəliş Günü Azərbaycan tarixində milli özünüdərk, siyasi mobilizasiya və ictimai həmrəyliyin simvolu kimi mühüm yer tutduğunu deyən professor əlavə edib ki, bu hadisə təkcə bir dövrün siyasi etirazı deyil, müstəqilliyə gedən yolun başlanğıcı kimi qiymətləndirilməlidir:

"Tarixi proseslərin təhlili göstərir ki, həmin gün xalqın milli şüuru yeni mərhələyə keçmiş, dövlətçilik ideyası isə strateji hədəfə çevrilmişdir. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına və milli-mənəvi dəyərlərin qorunub-saxlanmasına xüsusi diqqət yetirir. Azərbaycan bu gün həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın nüfuzlu dövlətlərindən birinə çevrilib. Bu gün Azərbaycan gələcəyə inamla baxır. Prezident İlham Əliyev ölkəmizi gələcəyə və yeni uğurlara inamla aparır. Bu, bir reallıqdır ki, müasir dünyada xarici ölkələr Azərbaycanın mövqeyi ilə hesablaşırlar. Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndərin xilas edib inkişaf yoluna çıxardığı dövləti daha da möhkəmləndirib. Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil, dünyəvi və inkişaf edən bir ölkədir".

***Nuranə NƏCƏFOVA***
***Azərbaycan Hərb Tarixi Muzeyinin tədqiqatçı-elmi işçisi***

